# PROFESSOR ZAHİD QARALOVUN "TƏRBİYƏ" KİTABINDA TƏRBİYƏYƏ DAİR MƏSƏLƏLƏR

*("Tərbiyə" trilogiyasının materialları əsasında)*

**Samirə Məmmədova,**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant,*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*
E-mail: samire.memmedova@bk.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* H.H. Əhmədov,
*ped.ü..fəls.dok., dos.* S.H. Həsənova

**Açar sözlər:** *tərbiyə prosesi, tərbiyə metodları, tərbiyə prinsipləri, tərbiyənin məzmunu, tərbiyə nəzəriyyələri, kompleks yanaşma, millilik*

***Ключевые слова:*** *воспитание, методы воспитания, принципы воспитания, содержание образования, образовательные теории, комплексный подход, национализм*

***Key words:*** *upbringing, methods of upbringing, principles of upbringing, the content of education, educational theories, complex approach, nationalism*

"Tərbiyə" prosesi əsas pedaqoji anlayışlardan biri olduğu üçün onun haqqında müxtəlif pedaqoqlar öz fikirlərini bildirmiş və əsərlərində geniş tədqiq etmişlər. Tərbiyə bəşər sivilizasıyası yaranandan bugünümüzə kimi cəmiyyətdə ən aktual problemlərindən biri olaraq qalır. Xüsusən də XXI əsrin texnologiya və informasiya əsri olduğunu nəzərə alsaq, böyüyən nəslin təlimində daha çox yeni təlim texnologiyalarından istifadə, müəllimin daha çox fasilitator mövqeyində olması tərbiyə prosesinə daha dərindən yanaşmağı tələb edir.

Şəxsiyyətin təşəkkül tapıb formalaşmasında digər amillərlə yanaşı, tərbiyə prosesinin müstəsna dərəcədə böyük rolu vardır. Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə) buyururdu ki, "tərbiyə valideynin öz övladına verdiyi ən böyük hədiyyədir". "Tərbiyə işi insan cəmiyyətinin yarandığı ilk dövrlərdən meydana gəlmiş, şəxsiyyətin formalaşması, inkişafı, davranışı prosesidir" (1, 5).

Nitşeyə görə, həyat ən yaxşı müəllimdir. Həyatdan uzaq olan şeyləri şagirdlərə öyrətməklə onları istənilən səviyyədə tərbiyə etmək olmaz. Onları böyük insanların nümunəsində tərbiyə etmək lazımdır. Bunu yalnız o adam edə bilər ki, öz dövrünün, öz xalqının işgüzar adamlarını sevir, onlardan öyrənir (4, 411).

Prof. Z.İ. Qaralovun "Tərbiyə" adlı üççildlik kitabında tərbiyə məsələləri geniş və ətraflı şərh olunmuşdur. Bu kitablarda sadəcə tərbiyə prosesinin nəzəriyyəsini deyil, eyni zamanda onu müxtəlif aspektlərdən də təhlil və tədqiq etmişdir. Bu məqalədə onun tərbiyənin nəzəri cəhətdən tədqiqinə aid fikirlərini təhlil edəcəyik. Tərbiyə cəmiyyətdə sağlam mühit əldə etmək üçün aparılan zəruri pedaqoji prosesdir. Tərbiyə dinamik və idarə edilən mürəkkəb sistemdir. Bu sistemə daimi təsir göstərən və dəyişən elementlər var. Hər elementin təsir gücünü tənzimləyən müvafiq amillər var ki, onları nəzərə almadan sistemin hərəkətini düzgün idarə etmək mümkün deyil. Professor yazır ki, tərbiyə ictimai hadisədir və insanların birgəyaşayış normalarına uyğun davranışlarını tənzimləyir. Eyni zamanda cəmiyyətin ümumi inkişaf strategiyasının tərkib hissəsinə daxildir və ciddi dövlət əhəmiyyətli problemdir. Tərbiyə sisteminə təsir edən amillər çoxdur. İctimai-sosial mühit, informasiya mühiti, mikromühit (ailə, məhəllə, bağça-məktəb), təhsil sistemi, özünüdərk səviyyəsi, fizioloji və psixoloji inkişaf səviyyəsi, yaş həddi, ailənin güzəranı, irsi əlamətlər və s. bu prosesdə xüsusilə mühüm rol oynayır. Gənc nəslin formalaşmasında ictimai-sosial mühit xüsusi yer tutur. İctimai-sosial mühitin daim təkmilləşdirilməsi və dəyişkənliyi tələb olunur.

İnsanın real, gerçək vəziyyəti, inkişaf səviyyəsi, bir də arzu olunan (ideal) səviyyəsi var. Real vəziyyət həmişə ideal səviyyədən aşağı olur. Real səviyyəni arzu olunan səviyyəyə çatdırmaq üçün, onun həlli məsələləri, vasitələri, metod və formaları axtarılır. Bəzən bu axtarışlar kompleks şəkildə, bəzən isə yalnız pedaqoji-psi-

xoloji baxımından aparılır. Z. Qaralovun fikrincə, bu axtarışlar paralel olaraq həm ayrı-ayrı problemlər üzrə, həmdə kompleks halında aparılmalıdır. Problemlərin ayrılıqda tədqiqi elmin dərinliyinə getməyə imkan verir. Kompleks tədqiqatlar isə problemlərin qarşılıqlı əlaqə və təsirlərini aşkara çıxarmağa kömək edir. Kompleks tədqiqatlar yeni tərbiyə nəzəriyyələrinin formalaşdırılması üçün çox vacibdir (2, 29).

Bizcə, kompleks tədqiqatların aparılması daha məqsədə uyğundur. Çünki yalnız pedaqoji-psixoloji baxımdan tədqiq edildikdə problemin tam olaraq həlli yolunu tapmaq mümkün deyil. İnsanın real vəziyyətinə ancaq pedaqoji və psixoloji amillər təsir etmir, eyni zamanda sosial amil, cəmiyyət, ətraf mühit, iqtisadi inkişaf, maliyyə və başqa bir çox amillər təsir edir. Tarixən tərbiyə nəzəriyyələri dövlət quruculuğu prinsiplərinə əsaslanmışdır. Ona görə də tərbiyə nəzəriyyələrin qurulma prinsiplərini müəyyənləşdirmək üçün ilk növbədə dövlət quruculuğu prinsiplərini təhlil etmək lazım gəlir. Dövlətlər indiyə qədər aşağıdakı prinsiplər əsasında qurulub: Dini əsaslarla yaranan tərbiyə sistemi bütövlükdə ilahi varlığa inam və onun tapşırıqlarını həyata keçirməyə yönəlir. Ana xətt olaraq bu nəzəriyyədə insan-Tanrı münasibətləri əsas götürülmüşdür. Sinfi ziddiyyətləri əsas götürməklə qurulan sosializm dövlətində kommunist tərbiyəsi nəzəriyyəsi yaradılmışdır. Bu tərbiyənin ana xəttini insan-dövlət-partiya münasibətləri təşkil edir.

İnsan subyekt kimi göstərilsə də, həqiqətdə obyekt kimi götürülür. Kommunist tərbiyəsi nəzəriyyəsində millilik, din, etnik köklər, milli psixologiya, genetika, insan hüquqlarına aid olan başqa amillər nəzərə alınmadığından, tərbiyənin son məqsədi mücərrəd xəyal kimi götürüldüyündən ciddi uğursuzluqlara məruz qaldı (2, 88).

İnsan hüquqları və "İctimai müqavilə" prinsipləri üzrə qurulan dövlətlərdə (ABŞ, Avropa) isə tərbiyə nəzəriyyələri insan-dövlət-Tanrı münasibətləri əsasında yaranmışdır. Bu nəzəriyyələrin baniləri C. Lokk, Ş.L. Monteskye, J.J. Russo və başqalarıdır. Burjua tərbiyə nəzəriyyəsi kimi tarixə daxil olmuş həmin nəzəriyyə insan hüquqları əsasında qurulmuşdur. Bu nəzəriyyədə insanın 6 təbii ehtiyacının ödənilməsi nəzərdə tutulur: azad seçmə, özünüyaşatma, özünümüdafiə, hüquq bərabərliyi, ictimai mövqe sərbəstliyi, mülkiyyət hüquqları

Pedaqoq yazır ki, insanın elementar təbii hüquqlarının qorunması prinsiplərinə əsaslanan tərbiyə nəzəriyyəsi, real həyat üçün daha münasibdir. Ona görə də bütün mənfiliklərinə baxmayaraq, burjua tərbiyə nəzəriyyələri özünü əməli olaraq doğrultmuşdur. Çünki ictimai quruluş bu nəzəriyyələrin tətbiqinə imkan yaratmışdır. Nəzəriyyə ilə praktika arasında böyük uçurum olmamışdır. Kapitalist dövlətləri hansı prinsiplər əsasında qurulmuşdusa, həmin prinsipləri də həyata keçirir. Tərbiyə nəzəriyyəsi də həmçinin. Burjua tərbiyə nəzəriyyəsi ilə tərbiyə təcrübəsi də bir-birini tamamlamışdır (2, 91).

Z. Qaralov Azərbaycan və türk dünyasının dövlət quruculuğu və insan tərbiyəsi üzrə tarixi təcrübəsinin təhlilindən belə nəticə çıxarır ki, ən mükəmməl tərbiyə nəzəriyyəsi insan-təbiət-cəmiyyət-Tanrı münasibətlərinin tarazlığı prinsipləri əsasında qurula bilər. Belə bir sistemdə bütün mənafeləri nəzərə almaq, bəşəriyyətin ən dəyərli ideyalarından faydalanmaq mümkündür. Bu sistemdə insan, təbiət və cəmiyyət subyekt kimi götürülür. Onların qarşılıqlı əlaqə və təsirləri elmi əsaslarla sübuta yetirilir.

Kompleks tərbiyənin tərkib hissələrinə professor bunları daxil etmişdir: əqli tərbiyə, əxlaq tərbiyəsi, ideya-siyasi tərbiyəsi, əmək tərbiyəsi, hüquqi tərbiyə, ekoloji tərbiyə, Azərbaycançılıq tərbiyəsi, bütün varlıqlara sevgi tərbiyəsi, milli-mənəvi və ümumbəşəri dəyərlərə rəğbət, insansevərlik (2, 111). Z.İ. Qaralovun tərbiyəyə kompleks yanaşmasına diqqət etdikdə görürük ki, digər yanaşmalardan fərqli olaraq o, bu günün ən vacib keyfiyyətləri olan humanizm, vətənpərvərlik, tolerantlığa üstünlük vermişdir.

Professor Z.İ. Qaralov "Tərbiyə" kitabında qeyd edir ki, tərbiyənin məzmununda millilik, millətçilik və beynəlmiləlçilik elementlərinin düzgün nəzərə alınmaması böyüyən nəslin tərbiyəsinə həmişə mənfi təsir göstərmişdir. Millətlərin özünəməxsusluğunu rəsmi proqramlarda əks etdirməmək, tərbiyə işində nəzərə almamaq daim millətlərarası ayrı-seçkilik ideyasının inkişafına kömək etmişdir. Tərbiyənin məzmununda millilik xüsusi rol oynayır. Bura yerli şərait, əhalinin adət-ənənələri, əhalinin məişət xüsusiyyətləri və sosial həyatı, milli psixologiya, dini baxışlar, mənəvi tələbatın bütün özünəməxsusluğu, millətin dili, tarixi, özünəxas fəlsəfəsi və s. daxildir. Tərbiyənin və təhsilin məzmununda professorun-

da qeyd etdiyi kimi 3 element həmişə nəzərə alınmalıdır. Azərbaycan multikultural ölkə olduğu üçün burada bir çox etnik millətlər yaşayır. Cəmiyyətin inkişafında ən böyük yük yetişən gənc nəslə, dolayısı ilə təhsil sisteminin üzərinə düşür. Ona görə də hər bir təhsil pilləsində bu üçlük öz əksini tapmalıdır. Yetişən nəsilə bir-birilərinə tolerant yanaşmağı, digər millətlərin mədəniyyətinə, dilinə, dininə və s. hörmətlə yanaşmağı öyrətmək lazımdır.

Tərbiyə sistemi ibtidaidən aliyə, sadədən mürəkkəbə, yaxından uzağa, millilikdən ümumbəşəriliyə, ailədən cəmiyyətə, adilikdən kamilliyə prinsipləri əsasında qurulur. Pedaqoq tərbiyənin məzmununun əsas mənbələrinə milli-mənəvi dəyərlər xəzinəsini, islam və ümumbəşəri dəyərlər, dövlətin Konstitusiyası, cəmiyyətdə bərqərar olmuş, hamı tərəfindən əməl edilən ictimai qaydalar, əxlaq normaları, etnik xüsusiyyətlər, milli mentalitet, milli psixologiya, etik normalar, beynəlxalq konvensiyalar, xartiya və prinsiplər, o cümlədən uşaq hüquqları konvensiyasını daxil etmişdir.

Professor yazır ki, tərbiyənin seçilmiş məzmunu uşaqların, gənclərin və yaşlı nəslin qəbuletmə imkanları və qəbulolunma zərurətinə uyğun olaraq paylara bölünür. Hər bir yaş dövrünə görə məqbul standartlar qəbul edilir. Tərbiyənin məzmunu hüdudsuz olmadığı kimi, dar çərçivəyə də salına bilməz. Tərbiyə prosesini elmi əsasda qura bilmək üçün, onun hüdudlarını, təxmini həcmini və tutumunu bilmək lazımdır. Eyni zamanda professor qeyd edir ki, tərbiyənin əsas məqsədi tərbiyə olunanların doğru yolu və məqsədə uyğun şəkildə məzmun, forma, metod, vasitə seçəndə bu proses çox uğurla gedir və müvəffəqiyyətlə nəticələnir.

Prof. Z.İ. Qaralov “Tərbiyə” kitabının ikinci cildində tərbiyənin metodları və prinsiplərini araşdırır. O, bütün dövrlərdə tərbiyə nəzəriyyə və təcrübəsində tətbiq olunan tərbiyə metodlarına bunları aid edir: əxlaqi təlim, inandırma, alışdırma, rəğbətləndirmə və cəzalandırma, sevindirmə və kədərləndirmə və s. (3, 13).

Professorlar Ə. Ağayev, A. Abbasov, F. Rüstəmov, F. İbrahimov, R. Hüseynzadə, A. Həsənov, “Pedaqogika” dərsliklərində tərbiyə metodlarının təsnifini vermişlər. Məsələn, L.N. Qasımova və R.M. Mahmudovanın “Pedaqogika” dərsliyində bizim pedaqoqlarla yanaşı müxtəlif ölkələrin pedaqoqlarının da təsnifi verilmişdir. Dərsliklərdə tərbiyə metodlarının müxtəlif təsniflərini görmək olar. Eləcə də Z.İ. Qaralovun verdiyi təsnifdə də əxlaqi təlim, sevindirmə, kədərləndirmə metodları da fərqlidir. Ancaq bütün dərsliklərdə ortaq metodlar çoxdur. Burdan belə nəticəyə gəlmək olar ki, hər bir dərsin məzmunundan, formasından və təşkilindən asılı olaraq müvafiq metodların seçilib tətbiq edilməsi dərsin məhsuldarlığını artırır. Eyni zamanda bir neçə ölkənin elmi-pedaqoji ədəbiyyatını təhlil edən Z.İ. Qaralov qeyd edir ki, Türkiyə, Səudiyyə Ərəbistan və islamın geniş yayıldığı digər ölkələrdə bizim indiyə qədər tərbiyə metodları kimi tanımadığımız bir neçə metodun geniş işləndiyini müəyyənləşdirdik: haqla batili ayırd etmək; öyüd-nəsihət vermək; ibrət dərsi vermək; haqq-hesab çəkmək; cəzalandırmaq; cəzanı qəbul etmək; möminlə kafiri fərqləndirmək; sorğu-sual; əmrə təslim olmaq; and-aman; hörmət göstərmək; şərəfləndirmək; mükafatlandırmaq; sevinc bəxş etmək; müjdələmək; doğru yola çəkmək; şəkk-şübhə; tərifləmək; minnətdarlıq etmək; məsləhət-məşvərət; zalımdan zülmü müqabilində əvəz çıxmaq; uğradığı haqsızlığın əvəzini çıxmaq; xeyir-dua vermək (3,19).

Tərbiyənin məzmununu, forma və metodlarını, prinsip və vasitələrini düzgün seçib tətbiq etməklə, nizamlı, elmi əsaslı tərbiyə sistemi yaratmaqla, tərbiyəvi hadisələrin gedişini yaxşılığa doğru dəyişmək olar.

Professor əlaqəli təhlil apararaq tərbiyənin 4 prinsipini ayırd etmişdir: varisliyə, ənənəyə sadiqliq prinsipi; tarixilik prinsipi; xalqın adət və ənənələrindən səmərəli istifadə etmək prinsipi; ictimai inkişaf qanunlarından istifadə və bunlara istinad etmək prinsipi.

Bu prinsiplərin hər birində tərbiyənin müxtəlif metodlarının mahiyyəti öz əksini tapır. O cümlədən müqəddəs varlıqlara inam və sevgi kimi qiymətli insani keyfiyyətlərin dərk olunmasının vacibliyi bəlli olur (3, 24). Ancaq tərbiyə prosesində bu prinsiplərlə kifayətlənmək düzgün olmaz. Tərbiyənin başqa prinsipləri də var. Bura məqsədyönlülük, yaşauyğunluq, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması, nikbinlik, uşağa hörmət və tələbkarlıq, vahidlik, sözlə əməlin birliyi, ardıcıllıq və sistematiklik və s.

prinsipləri də aid etmək olar ki, bu prinsiplərin hər birinin tərbiyə prosesində öz yeri, öz hökmü var. Həmin prinsiplərin tərbiyə prosesində kompleks şəkildə istifadə edilməsi daha gözəl nəticələr almağa kömək edir. "F.Nitşe deyirdi ki, tərbiyə etdiyi uşaqların fərdi qabiliyyət və meyllərini bilməyən, hamıya eyni tələblə yanaşan, hamıya eyni məzmunlu tapşırıq verən tərbiyəçi və müəllim nəinki yaxşı nəticə əldə edə bilər, əksinə ən böyük günah işlətmiş ola bilər. Onların bu cür "fəaliyyəti" nəticəsində böyüyən nəsil şəxsiyyət kimi formalaşmayıb kiçilir, hissələrə bölünür və nəticədə "sürüyə"çevrilirlər" (4, 412). O, "Tərbiyə" kitabının 2-ci cildində yazır ki, fasiləsiz milli təhsilin həyata keçirildiyi indiki şəraitdə tərbiyənin məzmununun və metodikasının formalaşdırılmasına imkan verən bir elmi sistem layihəsi təklif edirik:

1. Tərbiyənin mahiyyəti
2. İnsan-təbiət münasibətlərinin formalaşmasına tərbiyə sistemlərinin təsiri
3. İnsan-insan münasibətlərinin formalaşdırılmasının qanunauyğunluqları
4. İnsan-cəmiyyət münasibətlərinin formalaşmasının qanunauyğunluqları
5. İnsan-Tanrı münasibətlərinin qurulması yolları
6. Fasiləsiz milli təhsilin həyata keçirildiyi şəraitdə tərbiyənin məzmunu
7. Pedaqoji-psixoloji elmlərin, pedaqoji mətbuatın inkişafı (3, 26).

Sistem layihəsini diqqətlə incələdikdə, burdakı hər mövzunun və onu əhatə edən problemlərin ayrı-ayrılıqda bir dissertasiya mövzusu olduğunu görürük. Son illərdə tədqiq olunan mövzulara nəzər yetirdikdə yuxarıdakı mövzuların müəyyən qisminin tədqiq olunduğunu söyləmək olar.

**Problemin aktuallığı:** Professor Z.İ. Qaralovun tərbiyə məsələlərinə dair fikirləri diqqət mərkəzinə gətirilir.

**Problemin yeniliyi:** Professor Z.İ. Qaralovun "Tərbiyə" adlı üçcildliyində mühüm yer tutan tərbiyə məsələləri təhlilə cəlb edilmişdir.

**Problemin praktik əhəmiyyəti:** Məqalə gənc tədqiqatçılar, doktorantlar və magistrlər, pedaqoji sahədə çalışanlar üçün faydalı olacaqdır.

## ƏDƏBİYYAT

1. İbrahimov F., Hüseynzadə L. Pedaqogika. II cild. Bakı: Mütərcim, 2012.
2. Qaralov Z. Tərbiyə. I cild. Bakı: Pedaqogika, 2003.
3. Qaralov Z. Tərbiyə. II cild. Bakı: Pedaqogika, 2003.
4. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006.
5. Abbasov A. Pedaqogika. Bakı: Mütərcim, 2013.

**С. Мамедова**

## ВОПРОСЫ, СВЯЗАННЫЕ С ВОСПИТАНИЕМ В КНИГЕ «ВОСПИТАНИЕ» ПРОФЕССОРА ЗАХИДА ГАРАЛОВА

***РЕЗЮМЕ***

В статье рассматриваются общие вопросы образования отраженные в книге "Воспитание" профессора З. Гаралова. Воспитание- неотъемлемый процесс в направлении развития человека. Он находится под влиянием этого процесса с самого первого дня, когда человек открывает глаза на этот мир. В статье представлены его взгляды на методы, принципы, источники, содержание и другие вопросы воспитания.

**S. Mammadova**

## ISSUES RELATED TO THE EDUCATION OF PROFESSOR ZAHID GARALOV IN THE BOOK "EDUCATION"

***SUMMARY***

In the article general questions of education in the book "Education" of professor Z.İ. Garalov are considered. Education is an integral process in the direction of human development. He is influenced by this process from the very first day when the human eye is born in the world.

The article considers his views on methods, principles, sources, content and other issues of his education.

**Redaksiyaya daxil olub: 07.12.2017**